

*İSMAYIL MƏRCANLI İMANZADƏ*

# GÖZÜ KÖLGƏLİ DEYİLƏM

**Görkəmli ədəbiyyatşünas alim, Professor Qurban Bayramovun 75 illik yubileyinə dost hədiyyəsi**

**Nə od, nə ocaq hisiyəm,
Nə də nəfsin köləsiyəm.
Allahın dinc bəndəsiyəm -
Hirsli-hikkəli deyiləm.**



**Mən gül əkib, tikan dərən,
Ömrüm-günüm pərən-pərən.
Yetənin üstə çəmkirən -
Ağlı zədəli deyiləm.**

**Hökmünü gördüm hər anın,
Kəsmədim haqsızın yanın.
Bu sərsəm-dəli dünyanın -
Sonu, əzəli deyiləm.**

**Demirəm günəşəm-ayam,
Sərvətimdir abrım-həyam.
"Kəhər atlı" qarışqayam -
Qansoran zəli deyiləm.**

**Şeir şehli bar çiçəyim,
Xoş söz gözəlim-göyçəyim.
Halallıq dilim-dilçəyim -
Gözü kölgəli deyiləm.**